Ədəbiyyat qəzeti

2 oktyabr / 2021

# Bakıda milli kitab sərgisi




Oktyabrın 1-də Milli kitab satış sərgisinin açılışı oldu. "Qanun" nəşriyyatının direktoru Şahbaş Xuduoğlunun təşkilatçılığı ilə keçirilən tədbirdə əlli mindən artıq müxtəlif janrlı kitab nümayiş etdirildi və oktyabrın onuna qədər sərgi öz işini davam etdirəcək.

Sərginin açılışında giriş sözü ilə çıxış edən Ş.Xuduoğlu çağdaş mədəni və mənəvi dünyamızda kitabın yeri, önəmi barədə, həmçinin, son illərdə kitaba əvvəlki məhəbbətin azalması, bunu yaradan real səbəblər haqqında konkret faktlarla danışdı. Açılış panelində çıxış edən xalq şairi Sabir Rüstəmxanlı, xalq yazıçıları - Mövlud Süleymanlı, Natiq Rəsulzadə, yazıçı Seyran Səxavət və Əlisa Nicat da kitaba cəmiyyətimizin etinasız münasibəti ilə bağlı yaranmış problemlərə toxundular. Vurğuladılar ki, belə sərgilərin keçirilməsi kitaba əvvəlki oxucu məhəbbətinin qaytarılmasına xidmət edir.

Tədbir çərçivəsində yarmarkanın fəxri qonağı yazıçı-filosof Əlisa Nicatla görüş keçirildi. Ə.Nicat yazdığı romanlar, tərcümə etdiyi əsərlər barədə ətraflı bilgi verdi, iştirakçıları maraqlandıran sualları cavablandırdı.

Növbəti panel "Qarabağ dastanı" kitabının təqdimatına həsr olundu.

Panelin moderatoru, AYB-nin sədr müavini Rəşad Məcid Xalq yazıçısı, AYB-nin sədri Anar müəllimin təşəbbüsü və özünün redaktorluğu ilə işıq üzü görən bu kitabın leytmotivindən danışdı. Qeyd etdi ki, işğaldan azad olunmuş Qarabağ torpaqlarından yazmaq həmin rayonların yetirməsi olan yazıçılara tapşırıldı. Hərə öz rayonu haqqında - Ramiz Rövşən Qubadlıdan, Aqil Abbas Ağdamdan, Elçin Hüseynbəyli Cəbrayıldan, Seyran Səxavət Füzulidən, Şirindil Alışanlı Laçından, Adil Cəmil Kəlbəcərdən, Nəsiman Yaqublu Zəngilandan yazdı və bu yazılar tam fərqli olmaqla maraqlı təəssürat yaratdı. Xalq yazıçıları Anar və Elçin isə Şuşadan yazdılar. Şuşa və Laçın haqqında mənim də yazım bu kitabda yer aldı.

Sonra söz kitabda dərc olunan yazıların müəlliflərindən Seyran Səxavətə, Mehriban Vəzirə, Elçin Hüseynbəyliyə, Adil Cəmilə verildi. Çıxış edən yazarlar qələbədən sonra işıq üzü görən bu kitabın nikbin notlar üzərində meydana gəldiyini və çağdaş tariximizin bir parçasını ehtiva etdiyini vurğuladılar.

***A.Savalan***